# Sumqayıt Musiqi Kolleci

1961-ci ildən Asəf Zeynallı adına Bakı orta ixtisas musiqi məktəbinin filialı kimi fəaliyyətə başlayan tədris ocağı 1965-ci ildən müstəqil tədris müəssisəsi kimi fəaliyyət göstərir, elə bu dövrdən də kollec ardıcıl olaraq böyük nailiyyətlər əldə etmişdir. **Sumqayıt Musiqi Kollecinin direktoru, təcrübəli musiqiçi, əməkdar müəllim Rasim Quliyevlə** söhbət edərkən o bildirdi ki, bu dövr ərzində kollec bir çox nailiyyətlərə imza atmışdır. Təkcə onu qeyd etmək lazımdır ki, kollecin 20 nəfər tələbəsindən 13 nəfəri IX respublika müsabiqəsinin qalibləri sırasında olmuşdur. Kollecin tələbələri nəfəs və zərb alətləri ifaçılarının Fikrət Əmirov adına respublika müsabiqəsində qalib olmuşlar. Türkiyə Respublikasında keçirilən VI Uluslararası Türkcə Olimpiadasının yekun yarışmasında kollecin tələbəsi Təranə Sadıqzadə III yeri tutaraq bürünc medala layiq görülmüşdür.

Fərəhlə qeyd etmək lazımdır ki, bu təhsil ocağının tələbələri tarixən təkcə incəsənət sahəsində deyil, eyni zamanda başqa sahələrdə də uğurlar əldə etmişlər. Məktəbin bir neçə tələbəsi idmanın atıcılıq növü üzrə keçirilən "Mahir nişancı" turnirində yüksək göstəricilər əldə etmişdir. Kollecin məzunlarının əksəriyyəti nəinki respublikamızın, eyni zamanda xarici ölkə musiqi təmayüllü ali məktəblərində, aspiranturalarda öz təhsillərini davam etdirirlər. Bu ənənə bu gün də özünü göstərməkdədir. Kollecin məzunu Xədicə Zeynalovanın Almaniyanın Detmold Konservatoriyasının aspiranturasında təhsil alması buna aydın misaldır. O, eyni zamanda Hamburq şəhərində keçirilən beynəlxalq müsabiqənin qalibi də olmuşdur. Onun əsərləri Almaniyanın Berlin, Leypsiq, Hamburq şəhərlərinin konservatoriyalarının konsert zalında ifa olunmuşdur. Bundan başqa, kollecin onlarca tələbəsi respublika müsabiqələrinin qalibi olmuşlar.

Kollec tələbələrinin bir çox xarici ölkələrdəki nailiyyətləri respublika musiqi təmayüllü təhsil ocaqlarına bir örnəkdir. Məktəbin müəllim və tələbələrinin Rusiya, Moldova, Serbiya, Norveç, Türkiyə və sair ölkələrdəki uğurları buna misal ola bilər.

Unutmaq olmaz ki, hökumətimiz Sumqayıt Musiqi Kollecinin bir çox müəllimini daim fəxri adlara layiq görür. Elə bunun nəticəsidir ki, bu təhsil ocağında ciddi uğurlar əldə olunur, məktəbin yetirmələri respublikamızda özlərinə layiq yer tuturlar. Respublikamızın tanınmış sənətkarları olan Ceyhun Allahverdiyev, Ceyhun İsmayılov, Malik Mansurov, Elşən Mansurov,



Abbasqulu Nəcəfov, Aşıq Ulduz, Ramiz Əzimov və başqaları bu kollecin yetirmələridir.

Kollecin rəhbərliyi gənc musiqiçilərin ixtisas biliyini daha yüksək şəkildə formalaşdırmaq üçün respublikamızın adlı-sanlı, təcrübəli musiqiçilərinin ustad dərsi deməsi üçün kollecə dəvət edir. Məşhur müğənnilər Arif Babayevin, Canəli Əkbərovun, Zabit Nəbizadənin, Sabir Abdullayevin və başqalarının bu kollecdə ustad dərsi deməmələri buna aydın misaldır.

Bakı Musiqi Akademiyasının professorları Ramiz Zöhrabov, Elmira Əliyeva, Milli Konservatoriyanın professoru, əməkdar incəsənət xadimi Akif Quliyev və başqa musiqiçi alimlərimizlə olan görüşlərin tələbələrimizə böyük faydası olmuşdur.

Görülmüş bu və ya digər tədbirlərin nəticəsidir ki, Sumqayıt Musiqi Kollecinin yetirmələri nəinki Bakıda, Sumqayıtda, eyni zamanda respublikamızın bir çox musiqi, incəsənət məktəbləri, mədəniyyət evi, klublar və uşaq tərbiyə müəssisələrində uğurla çalışırlar.

Kollecin uğurları olduqca çoxdur. Bu uğurları saymaqla qurtarmaq olmaz. Məsələn, əməkdar incəsənət xadimləri, professor və bəstəkar Vasif Allahverdiyev və Ceyhun Allahverdiyevin "Zəfər himni" proqramlı əsərləri kollecin "Konsertmeystr sinfi"nin müəllim və tələbələrinin ifasında uğurla səslənmişdir. Ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 93 illiyi ilə əlaqədar Sumqayıt Musiqi Kollecində Bakı Musiqi Akademiyasının professoru, əməkdar incəsənət xadimi, bəstəkar Ceyhun Allahverdiyev və Milli Konservatoriyanın professoru, əməkdar incəsənət xadimi, bəstəkar Vasif Allahverdiyevin mahnılarından ibarət "Zəfər himni" adlı konsert proqramı anşlaqla keçmişdir. Konsert bəstəkarlarının və Sumqayıt Musiqi Kollecinin "Konsertmeystr sinfi" fənn birləşmə komissiyasının sədri İradə Abdullayevanın təşəbbüsü ilə təşkil edilmişdir. Müəllim və tələbələrin, xor kollektivinin (rəhbəri Firəngiz Xəlilova) iştirakı ilə keçən konsert əsasən "Konsertmeyster sinfi" müəllimlərinin sinfində təhsil alan tələbələrin məharətli ifası, müşayiəti ilə yadda qaldı. Bu tədbir II-III-IV kurs tələbələrinin özünəməxsus səriştəliliyini bir daha üzə çıxardı. Lalə Əliyeva, Rəna Əliyeva, Rəhimə Əliyeva, Könül Bəkirovanın çıxışları dəfələrlə alqışlanmışdır.



Ceyhun Allahverdiyevin "Milli marş", Vasif Allahverdiyevin "Azərbaycan" mahnıları da peşəkarcasına ifa olunmuşdur.

Çox fərəhli haldır ki, kollecin müəllim və tələbələri respublikamızın müxtəlif mədəni-maarif ocaqlarında da mütəmadi çıxışlar edirlər. Qubadlı rayon mədəniyyət evi, Bakı şəhər 12 saylı uşaq musiqi məktəbi, 2 saylı uşaq incəsənət məktəbi, Sumqayıt Dövlət Universiteti, "N" saylı hərbi hissələr və Xızı rayon Heydər Əliyev mərkəzindəki çıxışlar buna misal ola bilər.

**Zabit CAVADOV,**
**"Respublika".**